Yazan
04.12.13 18:28 -

Gürcüstan Rusiya ilə ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Bunu “Rustavi-2” telekanalına müsahibəsində Gürcüstan prezidenti Georgi Marqvelaşvili bəyan edib.

“İki ölkə arasında ticarət dövriyyəsinin artmasının Rusiya tərəfindən gələcəkdə Gürcüstana təzyiq aləti kimi istifadə ediləcəyi barədə söhbətlər, Rusiya ilə əməkdaşlığın genişləndirilməməsinə əsas olmalı deyil. Qoy heç kim narahat olmasın ki, Rusiya ilə ticarət dövriyyəsinin artması elə həddə çata bilər ki, gələcəkdə onun azalması Gürcüstanda vəziyyətin gərginləşməsinə səbəb ola bilər”, deyə Gürcüstan prezidenti qeyd edib.